AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№ 1(9)
2012

MALİYYƏ SABİTLİYİ İCMALI

I Rüb

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№ 1(9)
2012

MALİYYƏ SABİTLİYİ İCMALI

I Rüb

MÜNDƏRİCAT

GİRİŞ 4

I. Bank sektorunun fəaliyyət göstərdiyi mühit 5

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər 5

Haşiyə 1. Ölkə reytinqləri və suveren borclanma faizləri *6*

Haşiyə 2. Bazel III tələblərinin tətbiq edilməsi statusu *9*

1.2. Azərbaycan iqtisadiyyatında vəziyyət 10

II. Bank sisteminin inkişafı 12

2.1. Bank sistemin əsas göstəricilərinin dinamikası 12

2.2. Bank sisteminin öhdəlikləri 13

2.3. Bank sisteminin aktivləri 14

Haşiyə 3. Xarici valyutada kreditlər *15*

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri 17

Haşiyə 4. Banklarda kompensasiya siyasəti *18*

2.5. Bank sektorunun kapitalı 19

Haşiyə 5. Kapitala tələblərin yüksəldilməsi və onun makroeffektləri *20*

III. Bank sistemində risklər 21

Haşiyə 6. Korporativ idarəetmənin prinsipləri *22*

IV. Ödəniş sistemləri 24

Haşiyə 7. Ödəniş sisteminin inkişafında Mərkəzi Bankın rolu *24*

İstifadə olunmuş qrafik və cədvəllər 26

Abbreviaturalar

AMB	–	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİF	–	Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu
AZİPS	–	Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi
BVF	–	Beynəlxalq Valyuta Fondu
DQİ	–	Dövlət Qısamüddətli İstiqrazları
DSK	–	Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
HHİ	–	Herfindal-Hirşman İndeksi
XÖHKS	–	Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi
İEOÖ	–	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	–	İnkişaf Etmiş Ölkələr
MN	–	Azərbaycan Respublikası Maliyyə Nazirliyi
REM	–	Real Effektiv Məzənnə
ROA	–	Aktivlərin Gəlirliliyi
ROE	–	Kapitalın Gəlirliliyi
ÜDM	–	Ümumi Daxili Məhsul

GİRİŞ

2012-ci ilin I rübündə Mərkəzi Bank özünün maliyyə sabitliyi siyasətini qlobal iqtisadiyyatda kövrək artım, avrozonada dövlət borcu probleminin bir qədər səngiməsi, qlobal maliyyə bazarlarının nisbi canlanması, kreditləşmənin genişləndirilməsi, əmtəə bazarlarında volatilliyin qalması şəraitində həyata keçirmişdir. Qlobal əmtəə bazarlarında enerji daşıyıcılarının yüksək qiyməti fonunda Azərbaycanın xarici iqtisadi mövqeyi əlverişli olmuşdur ki, bu da ölkə iqtisadiyyatının o cümlədən, qeyri-neft sektorunda artım dinamikasının davam etməsinə müsbət təsir göstərmişdir.

Əlverişli makroiqtisadi konyunktur şəraitində Mərkəzi Bankın siyasəti bank sisteminin maliyyə dayanıqlığının qorunmasına yönəldilmişdir. Hesabat dövründə bankların likvidliyi və kredit riskləri xüsusilə diqqət mərkəzində saxlanılmış, prudensial nəzarətin son qlobal çağırışlara uyğunlaşdırılması davam etdirilmişdir.

Həyata keçirilmiş siyasət nəticəsində dövr ərzində maliyyə sabitliyi qorunub saxlanılmış, maliyyə sisteminin institusional inkişafı davam etdirilmiş, maliyyə xidmətlərinə çıxış imkanları artmışdır. Bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri məqbul səviyyədə saxlanılmışdır. Makro stress-testləşdirmə nəticələri də bank sisteminin hətta ən kəskin makroiqtisadi şoklara dayanıqlı vəziyyətdə və kredit risklərinin idarə olunan səviyyədə olduğunu göstərir.

I. BANK SEKTORUNUN FƏALİYYƏT GÖSTƏRDİYİ MÜHİT

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər

Cari ilin ilk aylarında dünya iqtisadiyyatında canlanma meyilləri müşahidə olunmuşdur. Canlanmanın əsas drayverləri ABŞ və Avrozonanın ən iri iqtisadiyyatı olan Almaniya olmuşdur. Lakin, canlanmanın səngiməsi, iqtisadi artımın kövrək və zəif olması riskləri yüksək olaraq qalmaqdadır. Belə ki, Avrozonada resessiya riskləri, inkişaf etməkdə olan ölkələrdə iqtisadi perspektivlərin zəifləməsi qlobal artımın dayanıqlığına risk yaradır.

Ayrı-ayrı ölkələrin siyasəti və beynəlxalq səviyyədə əlaqələndirilmiş tədbirlər nəticəsində qlobal iqtisadi canlanma cari ilin I rübündə davam etmişdir. Qlobal ticarətin dinamikasında da pozitiv meyillər müşahidə olunur.

Qlobal iqtisadiyyatın lokomotivi olan **ABŞ-da** əmək bazarında vəziyyətin yaxşılaşması, fond bazarlarının və kredit kanallarının bərpası istehlak inamı və xərclərinin artmasına səbəb olmuşdur. ABŞ-da istehlakçı inam indeksi böhran öncəsi səviyyəyə yaxınlaşmışdır. İstehlak xərclərinin artımı son yeddi ay ərzində maksimal həddə çatmışdır. Cari ilin fevral ayında ABŞ-da sənaye istehsalı ötən ilin fevral ayına nisbətən 4% artmış, istehsal güclərinin istifadə əmsalı 78,8% olmuşdur (2011-ci ilin fevral ayında 76,5%). İqtisadi aktivliyin canlanması özünü xarici ticarət dövriyyəsində də büruzə vermişdir. ABŞ-ın ticarət balansının kəsiri 2008-ci ilin oktyabr ayından bəri ən yüksək həddə çatmışdır. İşsizlik səviyyəsi I rüb ərzində 8,3%-dən yuxarı olmuşdur.

Qrafik 1.1. Sənayə istehsalının artımı, %-lə



Mənbə: Dünya Bankı

Dünya iqtisadiyyatında əhəmiyyətli paya (18%) malik olan **Avrozonada** zəif templə də olsa sənaye istehsalının artımı burada ehtimal edilən resessiyanın yumşaq olacağı gözləntilərini bir daha təsdiqlədi. Sənayenin artması daha çox mövsümi amillərlə izah olunan energetika sektorunda istehsalın artımı hesabına baş vermişdir. Qısamüddətli istehlak mallarının istehsalı isə azalmışdır. Avrozonada artım birliyin ayrı-ayrı ölkələri üzrə ciddi fərqlənir. Belə ki, Almaniyada sənaye istehsalı 1,5% artdığı halda, İtaliyada 2,5%, Finlandiyada isə 5,1% azalmışdır. İqtisadiyyatın ləng bərpası əmək bazarına da mənfi təsir edir. İşsizlik səviyyəsi 10%-dən çox olmaqla son 14 il ərzində maksimal səviyyədədir. Avrozonaya daxil olan ölkələr arasında ən yüksək işsizlik İspaniyadadır (23,6%).

İqtisadiyyatı resessiya təhlükəsindən qorumaq məqsədilə Avropa Mərkəzi Bankı tərəfindən uzunmüddətli və iri həcmli likvidlik dəstəyi, o cümlədən faiz dərəcələrini sıfır ətrafında saxlanılması tədbirləri gözlənilən nəticə verməmişdir. Digər tərəfdən, neftin qiymətinin artması inflyasiya risklərini yüksəldir ki, bu

da Avropa Mərkəzi Bankının pul siyasətini yumşaltmaq potensialını məhdudlaşdırır.

İEÖ-lərdə, xüsusən də Avrozonada risklərin yüksək olaraq qalması bir **sıra İEOÖ-lərdə** (o cümlədən Çində) iqtisadi aktivliyin aşağı düşməsinə səbəb olmuşdur. İEOÖ-lərin bir çoxunda daxili tələbin genişləndirilməsinə yönəldilmiş siyasət qlobal disbalansın aradan qaldırılmasına müsbət təsir edir.

Hesabat dövründə **maliyyə bazarlarında** canlanma müşahidə olunmuşdur. Cari ilin 1-ci rübündə qlobal fond bazarının vəziyyətini əks edən *MSCI World (Morgan Stanley Capital International World)* indeksi 11%, Amerika fond bazarını əhatə edən *S&P 500* indeksi 12%, *MSCI BRIC* (Braziliya, Rusiya, Hindistan və Çin fond bazarını əks edən indeks) isə 13,5% artmışdır. Rüb ərzində Dow Jones Sənaye, DAX, FTSE 100 və Nikkey 225 indeksləri müvafiq olaraq 8,1%, 17,8%, 3,5%, 19,3% artmışdır. Ötən ilin yanvar-mart ayları ərzində bu göstəricilərin dəyişimi 6,4%, -1,8%, -1,0%, -4,6% təşkil etmişdir. Rüb ərzində maliyyə bazarlarında pozitiv dinamika bir sıra amillərlə şərtlənmişdir: *(i)* müvəqqəti olsa da Avropada borc probleminin həlli (Yunanıstan); *(ii)* ABŞ-ın güclü makroiqtisadi statistikası fonunda qlobal iqtisadiyyatın bərpası gözləntiləri; *(iii)* Federal Ehtiyat Sistemi və Avropa Mərkəzi Bankı tərəfindən bazarlara əlavə dəstəyin verilməsi ehtimalları. Lakin, investorların ilin əvvəlindəki optimist gözləntiləri mart ayında pisləşməyə başlamışdır. Buna səbəb: *(i)* Çin iqtisadiyyatının artım tempi proqnozunun rəsmi olaraq 8%-dən

Haşiyə 1. Ölkə reytinqləri və suveren borclanma faizləri

BVF ekspertləri reytinqlərin təsirlərinin qiymətləndirilməsi üçün xüsusi tədqiqat aparmışlar. Tədqiqatda 72 ölkənin 2005-2010-cu illər ərzində ölkə reytinqləri və dövlət borclanma faizləri arasındakı əlaqə öyrənilmişdir. Bu zaman 101 min 176 gündəlik borclanma faizləri və ölkələr üzrə cəmi 194 reytinq dəyişilməsi (26 reytinqin azaldılması, 57 yüksəldilməsi, 71 pozitiv və 40 neqativ görünüm) üzrə məlumat təhlil edilmişdir. Tədqiqat bir sıra maraqlı faktların və nəticələrin əldə edilməsinə imkan verir.

- Son reytinq azaldılması ABŞ tarixində ötən 70 ildə bir ilkdir. Ölkə ən yüksək reytinqə 1941-ci ildən bu yana sahibdir. O vaxtdan son dəyişikliyədək ölkənin reytinqi sabit qalmışdır;
- Reytinq azaldıldıqdan sonra onun bərpası üçün uzun illər tələb olunur. 90-cı illərin əvvəllərində Kanada və Skandinaviya ölkələrinin reytinqləri aşağı salındıqdan sonra onların bərpası üçün 10 il vaxt lazım olmuşdur;
- BB+ və ondan yuxarı reytinqdə defolt faktına rast gəlinmir. 1975-2009-cu illərdə BB+ və yuxarı reytinqlərdə heç bir defolt hadisəsi baş verməmişdir. Ancaq eyni dövrdə BB+-dan aşağı reytinqlərdə 14 defolt qeydə alınmışdır;
- Ölkə reytinqləri ilə borclanma faizləri arasında qeyri-xətti əlaqə mövcuddur. Daha yüksək reytinqə sahib olmaq daha aşağı faizlərlə borclanma deməkdir. Ölkənin reytinqinin azalması reytinqi yüksək ölkə ilə müqayisədə borclanma faiz spredlərinin daha da böyüməsini şərtləndirir. Başqa ifadə ilə bazar reytinq azalmasını daha güclü multiplikativ təsirlə qarşılayır;
- Ötən illər ölkə reytinqləri və borclanma faizləri arasındakı asılılıq azalmaqdadır. Hesablamalar göstərir ki, əgər 2005-ci ildə bu asılılıq -0,34 təşkil edirsə, böhran dövründə tədricən enmiş və 2010-cu ildə -0,14-ə bərabər olmuşdur. Asılılığın belə azalması borclanma faizlərinə başqa faktorların daha çox təsir etməyə başladığını göstərir.

Mənbə: BVF WP 12/23, "Are rating agencies powerful?: An investigation into the impact and accuracy of sovereign ratings".

7,5% azaldılması; *(ii)* inflyasiya gözləntiləri və ABŞ iqtisadiyyatının tədricən bərpası ilə əlaqədar Federal Ehtiyat Sisteminin likvidlik dəstəyinə ehtiyac olmaması; *(iii)* Avropada böhranın kəskinləşməsi riskinin yüksək olaraq qalması.

Cari ilin I rübündə dünya bazarında **əmtəə qiymətləri** yüksəlsə də, onun tempi ötən ilin müvafiq dövründəkindən əhəmiyyətli dərəcədə az olmuşdur. Əmtəə qiymətlərinə təsir edən amillər qlobal artımda baş verən fluktasiyalarla sıx əlaqədardır. Bu əlaqə əmtəə qiymətləri tsikli ilə global iqtisadi aktivlik tsiklinin sinxronlaşmasında əks olunur. 2011-ci və 2012-ci illərdə qlobal artımın getdikcə daha çox azalması ehtimalına cavab olaraq əmtəə qiymətləri son 2-3 ilin maksimal səviyyəsindən aşağı düşmüşdür.

Qrafik 1.2. Qlobal səhm bazarı indeksləri



Mənbə: Reuters informasiya agentliyi

Neftin qiymətləri isə yüksək səviyyədə qorunmuşdur ki, bu da geopolitik vəziyyətin gərginləşməsi ilə izah olunur.

Məhdud qlobal bərpa mühitində 2012-2013-cü illərdə əmtəə qiymətlərinin dəyişməz qalması gözlənilir. Global artım gözləniləndən yüksək olduğu halda isə əmtəə qiymətləri tsiklik arta bilər.

Qrafik 1.3. Əmtəə qiymətləri indeksi (2005 = 100)



Mənbə: Dünya Bankı

Qrafik 1.4. Xam neftin orta aylıq qiyməti, $/ 1 barrel



Mənbə: Dünya Bankı

Beynəlxalq Valyuta Fondunun son **proqnozlarına** əsasən ABŞ iqtisadiyyatının canlanması və İEOÖ-də əlverişli makroiqtisadi vəziyyət 2012-2013-cü illərdə dünya ÜDM-in real artım tempinin sürətlənməsini dəstəkləyəcəkdir. BVF-nun proqnozlarına görə ABŞ-da iqtisadi artım tempi 2011-ci ildəki 1,7%-dən 2012-ci ildə 2,1%-ə, 2013-cü ildə isə 2,4% yüksələcəkdir. Avrozona iqtisadiyyatına dair son proqnozlar da yanvar ayı ilə müqayisədə yaxşılaşdırılmışdır. Bununla belə, yüksək neft qiymətləri, Avropa maliyyə sistemində deleverec prosesinin davam etməsi, fiskal konsolidasiya zərurəti iqtisadi canlanmanın davamlılığına risk yaradır. 2011-ci ildə baş vermiş sunami və zəlzələdən bərpa olunan Yaponiyada 2% artım ehtimal edilir.

Ümumilikdə isə BVF-nun proqnozlarına əsasən qlobal iqtisadi artım 2011-ci ildəki 4%-dən cari ildə 3,5% azalacaq, 2013-cü ildə isə 4,1% artacaqdır.

Beynəlxalq Valyuta Fondu tərəfindən 2012-ci ilin aprel ayında dərc olunan Qlobal Maliyyə Sabitliyi Hesabatına əsasən iqtisadiyyatın və maliyyə sektorunun bərpası istiqamətində ölkələr tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Avrozonanın maliyyə bazarları nisbətən sabitləşmişdir. Suveren öhdəliklər üzrə

Cədvəl 1.1. BVF-nun qlobal iqtisadi artımla bağlı son proqnozları, %-lə

	2010	2011	Proqnoz	
			2012	**2013**
DÜNYA İQTİSADİYYATI	**2.3**	**3.9**	**3.5**	**4.1**
İEÖ	**3.2**	**1.6**	**1.4**	**2.0**
ABŞ	3.0	1.7	2.1	2.4
Avro zona	1.9	1.4	-0.3	0.9
Almaniya	3.6	3.1	0.6	1.5
Fransa	1.4	1.7	0.5	1.0
İtaliya	1.8	0.4	-1.9	-0.3
İspaniya	-0.1	0.7	-1.8	0.1
Yaponiya	4.4	-0.7	2.0	1.7
Birləşmiş Krallıq	2.1	0.7	0.8	2.0
İEOÖ	**7.5**	**6.2**	**5.7**	**6.0**
MDB	4.8	4.9	4.2	4.1

Mənbə: BVF

spredlər aşağı düşmüş, bankların maliyyələşməsi və səhmlərin qiymətləri bərpa olunmuşdur.

2011-ci ilin sentyabr ayında dərc olunmuş hesabatla müqayisədə **Qlobal Maliyyə Sabitliyi Xəritəsində** aşağıdakı dəyişikliklər baş vermişdir:

• *Makroiqtisadi vəziyyətin* maliyyə sabitliyi risklərinə təsiri eyni səviyyədə qalmışdır. Lakin, Avropa banklarında leverecin azaldılması təzyiqləri kredit təklifinin azalması və iqtisadi aktivliyin aşağı enməsi ilə nəticələnə bilər.

• *Monetar və maliyyə şəraiti* ümumilikdə dəyişməmişdir. Qlobal monetar şərait indeksinin yumşalması ilə yanaşı bank kreditləşməsinin tələbləri sərtləşmiş və maliyyə şəraiti pisləşmişdir.

• *Kredit riskləri* yüksək səviyyədə qalmışdır. Bununla bərabər, Avropa banklarına olan təzyiq qalmaqdadır. O cümlədən, suveren risklərlə əlaqədar, Avrozonada olan zəif iqtisadi artım templəri, borc öhdəliklərinin vaxtının uzadılmasına olan tələbatın artması, investorların inamlarının bərpası üçün kapital ehtiyatlarının gücləndirilməsi zəruridir.

• *İnkişaf etməkdə olan bazarlarda risklər* orta dərəcədə olmuş və eyni səviyyədə qalmışdır. Ümumilikdə, inkişaf etməkdə olan bazarlar xarici şoklara qarşı davamlı bufer və siyasət çərçivəsinə malikdirlər. Lakin, kapital axınlarının volatilliyinin kredit və ÜDM-in artımına təsiri əhəmiyyətli ola bilər.

• Avropa Mərkəzi Bankı tərəfindən bankların üç illik likvidliklə təmin olunması *bazar və likvidlik risklərini* azaltmışdır.

• Əlavə likvidlik *"risk iştahasını"* yüksəltmişdir. Bank səhmlərinin qiyməti bərpa olunmuş və defolt riskləri azalmışdır.

Avropa siyasətçiləri böhranla mübarizə aparmaq üçün hərtərəfli strategiyanın əsas elementlərini işləyib hazırlamışlar. Avrozanada maliyyə sabitliyinin qorunması üçün qarşıda duran əsas məqsəd mövcud olan böhran idarə etməsi mexanizminin keyfiyyətini yüksəltmək, Avrozonada və hər bir ölkədə iqtisadi idarəçiliyi təkmilləşdirmək, dövlət büdcəsinin konsolidasiya edilməsi üçün ölkə səviyyəsində cəhdlərin göstərilməsi, sağlam kreditləşməni bərpa etmək və artım planlarını təkmilləşdirməkdir.

Qrafik 1.5. Qlobal Maliyyə Sabitliyi xəritəsi



Mənbə: Qlobal Maliyyə Sabitliyi Hesabatı, BVF, Aprel 2012

Qeyd: Mərkəzdən kənarlaşma risk/həssaslığın artmasını, monetar və maliyyə mühitinin yumşalmasını və ya risk iştahasının artmasını əks etdirir.

2011-ci ilin sentyabr ayından etibarən Avrozonada baş verən böhranla əlaqədar mühüm addımlar atılmışdır.

Milli tənzimləmə proqramı. Maliyyə bazarlarında gərginlik və tərəddüdlərlə üzləşən Avrozona ölkələri artımın stimullaşdırılmasına yönəldilmiş islahatlarla birlikdə fiskal tənzimləmənin həyata keçirilməsini üzərlərinə götürmüşlər. Fiskal inamı qazanmaq üçün Avrozona ölkələri fiskal intizamı milli fiskal çərçivələrinə daxil etmişlər.

Yunanıstana yardım proqramına dair razılığın əldə olunması. Özəl sektorun borc

Haşiyə 2. Bazel III tələblərinin tətbiq edilməsi statusu

Qlobal maliyyə bazarlarında, xüsusilə bank sistemində etimadın bərpa edilməsi, risklərin azaldılması və sabitliyin qorunması baxımından bank tənzimlənməsinin "Bazel III" tələblərinin dünyanın əsas aparıcı bankları tərəfindən ardıcıl olaraq mərhələli şəkildə tətbiq edilməsi xüsusi diqqət mərkəzindədir. İlkin mərhələdə fokuslaşma əsasən risk dərəcəsi ilə ölçülmüş aktivlərin hesablanması üzərindədir. Bazel Komitəsi 2011-ci ilin oktyabr ayından etibarən yeni tələblərin üzv ölkələr tərəfindən tətbiq edilməsi haqqında hesabat dərc etmişdir.

Bazel III tələblərinin tətbiq edilməsi statusu (Mart 2012)

Ölkə	Bazel III	Növbəti addımlar – tətbiq planları
Avropa Birliyi	2	Kompromis variantın 3-cü variantı nəşr edilmişdir (28.03.12)
Argentina	1	Yeni tələblərə uyğun yeni sənədin ilkin variantı üzrə işlər aparılır
Avstraliya	2	Kapital tələbləri üçün yeni qaydaların ilkin variantı nəşr edilmişdir (30.03.12) Likvidlik tələbləri üçün yeni qaydalar ictimai müzakirəyə verilmişdir (01.11.11-17.02.12)
Kanada	2	Yanvar 2013-cü ildən I dərəcəli kapitalın həcmi 7% müəyyən edilib (01.02.11) Kapital və kredit risklərinin müəyyənləşdirilməsi haqqında qaydaların ilkin variantı hazırlanmışdır (mart 2012)
Yaponiya	3	Tənzimlənmə qaydalarının ilkin variantı 7 fevralda, son variantı isə 30 martda nəşr edilmişdir
Səudiyyə Ərəbistanı	3	Tənzimlənmə qaydalarının son variantı nəşr edilmişdir
Koreya	1	Qaydaların ilkin variantı 2012-ci ilin ilk yarısında nəşr ediləcəkdir.

Rəqəm kodları: 1 = ilkin sənəd nəşr edilməyib; 2 = ilkin sənəd nəşr edilmişdir; 3 = son sənəd nəşr edilmişdir; 4 = son sənəd qüvvəyə minmişdir.

Mənbə: Progress report on Basel III implementation, http://www.bis.org/publ/bcbs215.pdf

yükü bölüşdürülməklə və əlavə dövlət dəstəyini təmin etməklə Yunanıstanın davamlı inkişafının bərpası üçün şərtlər aydınlaşdırılmışdır.

Böhranın idarə edilməsi imkanlarının genişləndirilməsi. Daimi əsasda böhranın idarə edilməsi mexanizminin – Avropa Sabitliyi Mexanizminin yaradılması daha tez müddətə həyata keçirilmiş və onun elastikliyi təkmilləşdirilmişdir.

Bank kapitalının möhkəmləndirilməsi. Avropa Bank Qurumu[1] (ABO) bank sisteminin kapitallaşma səviyyəsini, kapitalın keyfiyyətini artırmaq məqsədilə banklarda Bazel-3 tələblərinə uyğun olaraq əlavə kontrtsiklik buferin tətbiqi zəruriliyini bəyan edib. Bu zaman ABO bir mənalı olaraq artan kapitallaşma tələbini aktivlərin azaldılması hesabına deyil, kapitallaşmanın və aktivlərin keyfiyyətinin artırılması vasitəsilə qarşılamağı tövsiyə edir.

İdarəetmənin təkmilləşdirilməsi. Avropa birliyi ölkələri idarəçiliyi və prosedurları sadələşdirən ”altı qutu (six pack)” adlı islahatları qəbul etmişdir. Bir çox Avropa Birliyi ölkələri Sabitlik və Artım Paktından irəli gələn öhdəlikləri gücləndirən və fiskal uyğunsuzluqların qarşısının alınmasına yönəldilən konstruktiv razılıq qaydalarını əlavə edən Fiskal Sazişə imza atmışlar. Eyni zamanda fiskal siyasətin koordinasiyası, monitorinqi, uyğunsuzluqların müəyyən edilməsi və korrektə edilməsi məqsədilə prosedurlar qəbul edilmişdir.

Avropa Mərkəzi Bankının dəstəyi. Avropa Mərkəzi Bankı siyasət dərəcəsini, məcburi ehtiyat normasını aşağı salmış, banklara əlavə üç illik yenidən maliyyələşdirmə proqramı vasitəsilə likvidlik dəstəyini göstərmişdir.

Qarşıdakı dövrdə maliyyə sabitliyi üzərində riskləri minimallaşdırmaq üçün beynəlxalq təşkilatlar İEÖ və İEOÖ-lərin tənzimləmə orqanlarına bir sıra tövsiyələr hazırlamışlar.

İnkişaf etmiş ölkələrdə böhranın vurduğu zərərin aradan qaldırılması və gələcəkdə yenidən bu cür böhranın baş vermə hallarının azaldılması üçün struktur və institusional islahatların aparılması zəruridir. Bu islahatların ən vacib istiqamətlərindən biri maliyyə sektoru üzrə islahatlardır. İfrat maliyyələşmə bəzi hallarda şokun baş vermə səbəbi kimi çıxış etdiyindən leverecin azaldılması sistem üzrə sabitliyin əldə olunması üçün zəruri addım olaraq qalır. Lakin, hazırda siyasətçilər üçün çağırış leverecin qarşısının alınmasının elə həyata keçirilməsidir ki, o bank sistemi üçün destruktiv xarakter daşımasın və özəl sektora adekvat kredit axını təşviq edilsin. Eyni zamanda siyasətçilər bank sisteminin likvidliyinin təmin edilməsinə hazır olmalıdırlar. Prudensial siyasət və çərçivənin inkişaf etdirilməsi də daim diqqət mərkəzində saxlanılmalıdır.

İnkişaf etməkdə olan ölkələrdə isə aidiyyəti orqanlar maliyyə sistemini həddindən artıq aktivlikdən çəkindirməlidirlər. Makroiqtisadi vəziyyətin normallaşdığı İEOÖ ölkələr İEÖ-dən gələn arzuolunmaz xarici təsirlərdən və dəyişkən kapital axınlarından özlərini qorumağa hazır olmalıdırlar. İEOÖ-də fiskal siyasət müxtəlif şərait və risklərə reaksiya verməli, avtomatik stabilizatorların sərbəst fəaliyyətinə şərait yaradılmalıdır. Bu ölkələrdə maliyyə kövrəkliyi ilə əlaqədar prudensial siyasət çərçivəsinin inkişafı da mühümdür.

1.2. Azərbaycan iqtisadiyyatında vəziyyət

2012-ci ilin I rübündə bank sistemi ölkənin xarici mövqeyinin güclənməsi və qeyri-neft sektorunda iqtisadi aktivliyin yüksəlməsi, makroiqtisadi sabitliyin qorunması şəraitində fəaliyyət göstərmişdir.

Qlobal iqtisadiyyatda kövrək də olsa, artımın davam etməsi və yüksək enerji qiymətləri şəraitində ölkənin xarici mövqeyi əlverişli olaraq qalmışdır. 2012-ci ilin yanvar-mart aylarında 2011-ci ilin eyni dövrü ilə müqayisədə

[1] Avropa Bank Qurumu 2011-ci ilin yanvarında yaradılmışdır. Bu qurumun fəaliyyəti sahəsinə Avropa maliyyə sisteminin şəffaflığının artırılması məqsədilə Avropa bankları üzərində stress-testlərin aparılması, bankların kapitalının strukturunun zəif tərəflərinin müəyyən edilməsi, beynəlxalq nəzarətə koordinasiyanın gücləndirilməsi, bank sahəsi üzrə Avropa birliyi institutlarına məsləhətlərin verilməsi, ödəniş sistemlərinin tənzimlənməsi, korporativ idarəetmə, audit və maliyyə hesabatlarının təhlili daxildir.

ixrac 7%, idxal isə 9% artmış və xarici ticarət balansının profisiti 3.8 mlrd. dollar olmuşdur. Müqayisə üçün qeyd edək ki, profisit ötən ilin eyni dövründəki səviyyədən 7% çoxdur.

İxracdan əlavə rüb ərzində ölkəyə xarici valyuta daxilolmaları pul baratları və xarici investisiyalar hesabına da artmışdır. Ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi DSK-nın məlumatına görə ötən dövrdə 19% artaraq 730 mln. dollara bərabər olmuşdur.

Ölkənin xarici mövqeyinin möhkəmlənməsi nəticəsində 2012-ci ilin yanvar-mart aylarında ölkənin strateji valyuta ehtiyatları 7% artaraq 43 mlrd. dolları ötmüşdür ki, bu da təqribən 3 illik mal və xidmətlərin idxalına kifayət edir.

Məcmu tələbin komponentləri olan son istehlak xərcləri, investisiyalar iqtisadi artıma müsbət təsir göstərmişdir. Ötən dövrdə büdcə xərclərinin, əsasən də investisiya xəclərinin yüksək artımı tələbə təsir göstərən mühüm amil olmuşdur.

Eyni zamanda nominal ifadədə əhalinin son istehlak xərcləri 14%, bütün mənbələrdən iqtisadiyyata investisiya qoyuluşu isə 17% artmışdır. Əsas kapitala yönəldilən investisiyaların 64%-i qeyri-neft sektorunun payına düşmüşdür.

Qrafik 1.6. Yanvar-mart aylarında iqtisadi artım, %-lə



Mənbə: DGK

Məcmu tələbə adekvat olaraq ilin ilk 3 ayında ölkədə iqtisadi artım davam etmişdir. 2012-ci ilin yanvar-mart aylarında ÜDM real ifadədə 0,5% artmış və nominal olaraq 12 mlrd. manatı ötmüşdür. Hesabat dövründə qeyri-neft sektorunda artım 7,7% təşkil etmişdir. Yaradılan əlavə dəyərin 2/3 hissəsi məhsul istehsalı sahələrinin, 1/3 hissəsi isə xidmət sahələrinin payına düşür.

Qlobal əmtəə bazarlarında qiymətlərin artması və məcmu tələbin canlanması şəraitində inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması mühüm vəzifə olaraq qalmışdır. Mart ayında qiymətlər ilin əvvəlinə nəzərən 0,5% artmış, orta illik inflyasiya 3,1% təşkil etmişdir.

Dövr ərzində məzənnənin əhəmiyyətli möhkəmlənməsinin qarşısını almaq və bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün Mərkəzi Bank tərəfindən 233 mln. dollar həcmində valyuta sterilizasiyası həyata keçirilmişdir. Nəticədə 3 ayda manatın ABŞ dollarına qarşı məzənnəsi mülayim templə, cəmi 0,04% möhkəmlənmişdir.

Cari ilin ötən dövründə pul siyasəti alətləri üzrə qəbul edilmiş qərarlar qiymət sabitliyinin qorunmasına yönəldilmişdir.

Hesabat dövründə pul təklifi mövsümi amillərin təsiri altında dəyişmiş, manatla pul bazası 0,9%, pul kütləsi isə 2,4% artmışdır.

II. BANK SİSTEMİNİN İNKİŞAFI

2.1. Bank sistemin əsas göstəricilərinin dinamikası

2012-ci ilin I rübündə bank sektorunun göstəricilərində artım və sektorun institusional inkişafı davam etmişdir.

2012-ci ilin I rübünün sonuna bank sektorunun aktivləri 14685,9 mln. manat təşkil etmişdir. İlin əvvəli ilə müqayisədə bank aktivləri 739,1 mln. manat və ya 5,3% artmışdır (son bir ildə artım 16,3% olmuşdur). 2012-ci ilin yanvar-mart ayları ərzində kreditlər 3% artaraq müvafiq dövrün sonuna 9993,4 mln. manat olmuşdur ki, bu da bank aktivlərinin 68%-ni təşkil etmişdir.

Bankların depozit bazası (qeyri-maliyyə sektorundan cəlb olunmuş vəsaitlər) 4,8% artmışdır. O cümlədən fiziki şəxslərin əmanətləri 4,3% artaraq 4298,9 mln. manata çatmışdır.

Bank sisteminin təmərküzləşməsi səviyyəsini əks edən Herfindal-Hirşman indeksi[2] hal-hazırda sistemin təmərküzləşməsinin orta səviyyədə olduğunu əks etdirir.

Cari ilin mart ayının sonuna fəaliyyətdə olan bankların sayı 44 olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 yeni bank filialı (cəmi 666 filial) və 41 yeni bank şöbəsi açılmışdır (cəmi 164 bank şöbəsi). Xarici kapitallı bankların sayında da artım müşahidə olunur. Xarici kapitallı bankların sayı 22-dən 23-dək yüksəlmişdir.

Qeyri-bank kredit təşkilatlarının sayı artmışdır. Ötən ilin mart ayı ilə müqayisədə qeyri-bank kredit təşkilatlarının sayı 106-dan 127-dək artmışdır. O cümlədən, 1 aprel 2011-ci il tarixə kredit ittifaqlarının sayı 87 olduğu halda, hazırda onların sayı artaraq 99-a çatmışdır.

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi, %-lə

	2009	2010	2011 / I rüb	2011	2012 / I rüb
Aktivlər	13.6	13.9	2.4	7.3	5.3
Kreditlər	17.3	9.0	-9.1	8.1	3.0
Hüquqi şəxslərin depozitləri	-18.8	4.3	-7.3	16.1	5.4
Əhalinin əmanətləri	22.6	29.8	8.6	36.0	4.3
Məcmu kapital	17.9	7.8	0.8	12.7	10.6

Mənbə: AMB

Rüb ərzində əhaliyə, xüsusilə də regionlarda yaşayan sakinlərə maliyyə xidmətlərini göstərən "AZƏRPOÇT" Məhdud Məsuliyyətli

Cədvəl 2.2. Herfindal-Hirşman indeksinin dinamikası

	01.01.2011	01.04.2011	01.01.2012	01.04.2012
Kreditlər	2085.1	1581.8	1430.0	1379.2
Fiziki şəxslərin müddətli depozitləri	808.8	840.0	840.2	875.9
Məcmu kapital	935.2	947.0	825.5	695.6

Mənbə: AMB

[2] Herfindal-Hirşman indeksi - bank sistemində bankların paylarının kvadratlarının cəminə bərabərdir. İndeksin qiyməti 1000-dən az aşağı, 1000-1800 arası olduqda orta, 1800-dən yuxarı yüksək təmərküzləşməni göstərir.

Cəmiyyətinin 63 filialı uğurla fəaliyyət göstərmişdir. 1 aprel 2012-ci il tarixinə olan məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə "AZƏRPOÇT" MMC-nin şöbələrinin sayı 624-dən əhəmiyyətli artaraq 897-yə çatmışdır.

2.2. Bank sisteminin öhdəlikləri

2012-ci ilin I rübü ərzində bank sisteminin resurs bazasının daha dayanıqlı mənbələr hesabına möhkəmləndirilməsi prosesi davam etmişdir.

2012-ci ilin yanvar-mart ayları ərzində bankların öhdəlikləri 5,9% artaraq (693,7 mln. manat) 01.04.2012 tarixinə 12 522,0 mln. manat təşkil etmişdir. 2012-ci ilin I rübündə bankların ümumi depozitləri 3,7% (maliyyə və qeyri-maliyyə sektorundan cəlb olunmuş vəsaitlər) artaraq 9796,5 mln. manata çatmış və cəmi öhdəliklərin 78,2%-ni təşkil etmişdir.

Hesabat dövründə əhalinin əmanətləri 4,3% artmış və 4298,9 mln. manata çatmışdır. Onun bankların öhdəliklərində payı isə dövrün sonuna 34,3% təşkil etmişdir (ötən ilin müvafiq dövründə 31,6% olmuşdur).

Qrafik 2.1. Depozitlərin dinamikası, mln. man.



Mənbə: AMB

2012-ci ilin I rübü ərzində əmanətlərin müddət strukturunda müsbət meyillər müşahidə olunmuşdur. Müddətli əmanətlər 132,2 mln. manat, tələb edilənədək əmanətlər isə 46,9 mln. manat artmışdır. Müddətli əmanətlərin cəmi əmanətlərdə payı mart ayının sonuna 79% olmuşdur.

Qrafik 2.2. Fiziki şəxslərin əmanətlərinin müddəti



Mənbə: AMB

Əhalinin bank sisteminə inamın artması nəticəsində uzunmüddətli və milli valyutada əmanətlərinin artması müşahidə olunmuşdur. Hesabat dövrü ərzində uzunmüddətli əmanətlər 5,2% artaraq cəmi əmanətlərin 36,2%-i (ilin əvvəlinə 35,9%) səviyyəsinə çatmışdır.

2012-ci ilin I rübü ərzində milli valyutada əmanətlər 5% artaraq 2395,7 mln. manata çatmış və əmanətlərin 55,7%-ni təşkil etmişdir (2011-ci ilin müvafiq dövründə - 46,1%).

Cədvəl 2.3. Bank öhdəliklərinin strukturu, %-lə

	01.01.2010	01.01.2011	01.04.2011	01.01.2012	01.04.2012
Depozitlər	39.7	41.9	46.8	46.8	47.7
AMB-nın banklara qarşı tələbi	6.4	4.8	6.3	4.9	6.5
Bankların tələbləri	8.6	17.2	5.6	13.6	5.1
Digər	24.5	18.6	22.1	17.7	22.0
Kapital	20.8	17.5	19.2	17.0	18.6

Mənbə: AMB

Qrafik 2.3. Fiziki şəxslərin əmanətlərinin valyuta strukturu



Mənbə: AMB

Qrafik 2.4. Qeyri-rezidentlərdən (fiziki şəxslər istisna olmaqla) cəlb edilmiş müddətli öhdəliklərin dinamikası



Mənbə: AMB

Qeyri-rezident fiziki şəxslərin Azərbaycan bank sisteminə marağı artmaqda davam edir. Belə ki, 2012-ci ilin yanvar-mart ayları ərzində qeyri-rezident fiziki şəxslər tərəfindən yerləşdirilmiş əmanətlərin həcmi 12,1% artmışdır (ötən ilin rübü ərzində 2,6%) və dövrün sonuna cəmi əmanətlərin 9,7%-ni təşkil etmişdir.

İqtisadi aktivliyin yüksəlməsi şəraitində hüquqi şəxslərin depozitlərində də artım müşahidə olunur. Hüquqi şəxslərin depozitlərinin ötən ilin rübü ərzində 7,3% azalması, cari ilin yanvar-mart ayları ərzində 5,4%-lik artım ilə əvəzlənmişdir. Belə ki, qeyri-maliyyə təşkilatları tərəfindən cəlb olunmuş əmanətlər 150,3 mln. manat artaraq rübün sonuna 2957,9 mln. manat təşkil etmişdir. Son bir ildə artım 31,9% olmuşdur və bank öhdəliklərinin 23,6%-ni təşkil etmişdir (01.04.2011-ci ilin tarixinə 21,5%).

Hüquqi şəxslər tərəfindən banklarda yerləşdirilmiş depozitlərdə milli valyutada depozitlər üstünlük təşkil edir. 2012-ci ilin yanvar-mart ayları ərzində manatla olan depozitlər 7,8%, xarici valyutada olan əmanətlər isə 3,1% artmışdır.

Cari ilin yanvar-mart ayları ərzində qeyri-rezident banklardan və beynəlxalq maliyyə təşkilatlarından cəlb edilmiş vəsaitlər 3,1% artaraq 1918,6 mln. manat səviyyəsinə yüksəlmişdir.

Xaricdən cəlb olunmuş vəsaitlərin səviyyəsi məqbul səviyyədə olmuşdur və cəmi öhdəliklərin 15,3%-ı təşkil etmişdir.

2.3. Bank sisteminin aktivləri

Hesabat dövründə maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi prosesi davam etmişdir. Kreditləşmə aktiv bank xidmətlərinin əsas hissəsi olaraq qalır.

Bank aktivlərinin dəyişimi (cari ilin I rübü ərzində artım 5,3%) əsasən kredit qoyuluşlarının və qiymətli kağızların dinamikası ilə əlaqədar olmuşdur. Rüb ərzində kredit qoyuluşları 3% artmış və dövrün sonuna 9 993,4 mln. manat təşkil etmişdir.

Qrafik 2.5. Kredit aktivliyi, sorğu nəticələri*



Mənbə: AMB

* Sorğunun nəticələri "balans metodu" üsulu ilə qiymətləndirilmişdir: "Balans metodu" – suala "artım" ("yumşalma") cavab vermiş respondentlərin ümumi respondentlərin sayında payı ilə "azalma" ("sərtləşmə") qeyd etmiş respondentlərin payı arasındakı fərqdir. Alınmış fərq komponent üzrə hər hansı bir təzahürü xarakterizə edən indeks adlanır və bazis bəndi ilə qiymətləndirilir. İndeksin dəyişmə amplitudası -100 ilə +100 arasındadır.

Əlverişli iqtisadi mühit və borcalanların maliyyə durumunun yaxşılaşmasının nəticəsi olaraq uzunmüddətli kreditlərin artımı tendensiyası davam etmiş (1 yanvar 2012-ci il tarixi ilə müqayisədə 5,7%) və kreditlərin strukturunda onların payı 1 aprel 2012-ci il tarixə 72,3 % olmuşdur. Qısamüddətli kreditlər isə 3,3% azalmış və rübün sonuna 2769,6 mln. manat təşkil etmişdir.

Rüb ərzində kredit portfelinin valyuta strukturu nisbi sabit qalmışdır.

Qrafik 2.6. Kredit portfelinin valyuta strukturu, %-lə



Mənbə: AMB

Haşiyə 3. Xarici valyutada kreditlər

Kredit portfelinin valyuta strukturu bank sektorunun üzləşə biləcəyi riskin səviyyəsinə birbaşa təsir edir. Xarici valyutada kreditlər məzənnənin dəyişməsinə həssas olduğundan əlavə risk (birbaşa və dolayı) yaradır. Belə ki, məzənnənin dəyişməsi xarici valyutada bank aktivlərini dəyərsizləşdirə və ya xarici valyutada gəlirləri olmayan borcalanların kredit risklərini artıra bilər.

Qeyri-maliyyə sektorunun xarici valyutada kreditləşməsinin artması Avropa Sistem Risk Şurasının diqqəti mərkəzindədir. Bu kateqoriyadan olan kreditlər maliyyə sabitliyi üçün təhlükə yaratdığından 2011-ci ilin oktyabrında Şura xarici valyutada kreditlərin izafi artmasının qarşısının alınmasına yönəldilən 7 tövsiyə işləyib hazırlamışdır. Tövsiyələr Avropa Birliyi ölkələri, yerli nəzarət orqanları və Avropa Bank Nəzarəti orqanı üçün nəzərdə tutulmuşdur.

Tövsiyə A: maliyyə institutları borc alanlara xarici valyutada kreditlərlə bağlı risklər haqqında ətraflı məlumat (növbəti ödənişə milli valyutanın dəyərinin kəskin aşağı düşməsinin təsiri, xarici valyutada faiz dərəcələrinin yüksəlməsi və s.) verməlidirlər;

Tövsiyə B: yerli nəzarət orqanı xarici valyutada kreditləşmə və qeyri-maliyyə sektorunda mövcud olan valyuta uyğunsuzluğu səviyyəsinə nəzarət etməlidir. Bu cür kreditlərin əsasən yüksək kredit qabiliyyətliliyi nümayiş etdirən borcalanlara verilməsi tövsiyə olunur;

Tövsiyə C: yerli nəzarət orqanı tərəfindən xarici valyutada kreditlərin izafi kredit artımına səbəb olub-olmamağı nəzarətdə saxlanılmalıdır. Belə hallarda müvafiq məhdudiyyətlərin daha fəal tətbiq edilməsi tövsiyə olunur;

Tövsiyə D: yerli nəzarət orqanı banklara xarici valyutada kredit risklərinin idarə edilməsi sistemlərinin təkmilləşdirilməsinə dair müvafiq tövsiyələr göndərə bilər. Bu tövsiyələr bankın fəaliyyətinin həcmindən və mürəkkəbliyindən asılı olaraq dəyişə bilər;

Tövsiyə E: yerli nəzarət orqanı xarici valyuta olan kreditlər üzrə risklərin və itkilərin örtülməsi üçün bankların adekvat kapital səviyyəsinə malik olmasını tövsiyə etməlidir;

Tövsiyə F: yerli nəzarət orqanı xarici valyutada olan kreditlərlə bağlı olaraq maliyyələşmə və likvidlik risklərinə yaxından nəzarət etməlidir. Xüsusən, aktivlər və passivlər arasında ödəniş müddəti və valyuta üzrə yaranan uyğunsuzluqlara, xarici bazarlarda valyuta əməliyyatlarına və maliyyələşmə mənbələrinin konsentrasiyasına diqqət yetirilməlidir.

Tövsiyə G: Beynəlxalq bank qruplarına gəldikdə, xarici valyutada kreditləşməyə dair tələblərin bütün Avropa Birliyi ölkələrində unifikasiyası tövsiyə edilir. Bu tövsiyə eyni ölkədə qeydiyyata alınmayan borcalan və bank arasında xarici valyutada kreditləşmə üçün nəzərdə tutulub. Burada tədbirlər individual, subkonsolidasiya və konsolidasiya edilmiş səviyyədə olmalıdır.

Mənbə: Recommendation of the European Systemic Risk Board of 21 September 2011 on lending in foreign currencies

Ötən dövrlərdə olduğu kimi milli valyutada olan kreditlərin ümumi portfeldə xüsusi çəkisi xarici valyutada kreditlərin xüsusi çəkisini üstələmiş və rübün sonuna 64,9% təşkil etmişdir.

Rüb ərzində banklar tərəfindən hüquqi şəxslərə verilmiş kreditlər 1,1% artmış və dövrün sonuna 6059 mln. manat (portfeldə payı 60,6%) təşkil etmişdir. Fiziki şəxslərə kreditlər isə rüb ərzində 6,4% artmış və onların portfeldə xüsusi çəkisi ilin əvvəli ilə müqayisədə 1 f.b artaraq 1 aprel 2012-ci il tarixinə 32,8% təşkil etmişdir.

İstehlak kreditləri rüb ərzində (bütün kredit təşkilatları üzrə) 6,3% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 74,8%-ni təşkil etmişdir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlər isə 3,2% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 7,6%-ni təşkil etmişdir.

Qrafik 2.7. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası



Mənbə: AMB

Fiziki şəxslərə daşınmaz əmlakın tikintisi və alınması üçün verilmiş kreditlər rüb ərzində 7,7% artmış və 1 aprel 2012-ci il tarixinə 620 mln. manat təşkil etmişdir. Bu kreditlərin ev təsərrüfatlarına verilmiş kreditlər portfelində payı rübün sonuna 17,6% olmuşdur.

Qrafik 2.8. Fiziki şəxslərə kreditlərin məqsəd üzrə strukturu, %-lə



Mənbə: AMB

Rüb ərzində fiziki şəxslərə verilmiş uzunmüddətli kreditlərin (bütün kredit təşkilatları üzrə) cəmi portfeldə payı 8% artaraq portfelin 72,1%-ni (2 541,8 mln. manat) təşkil etmişdir.

Kredit portfelinin strukturunda ticarət və xidmət sektoruna kreditlərin artımı 1,8% olmuş, və 1 aprel 2012-ci il tarixinə bu kreditlər portfelin 29%-ni təşkil etmişdir. Eyni zamanda kənd təsərrüfatı və emalı sektoruna verilən kreditlər 2,8%, nəqliyyat və rabitə sektoruna - 4%, sənaye və istehsal sektoruna - 0,4%, plastik kartlarla

Cədvəl 2.4. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası

Sahə	01.04.12		Rüb ərzində artım, %
	mln. manat	Kredit portfelində payı, %	
Ticarət və xidmət	2894.4	29.0	1,8
Ev təsərrüfatlarına	3281.9	32.8	6,4
Kənd təsərrüfatı və emalı	469.9	4.7	2,8
İnşaat və əmlak	858.7	8.6	-1,9
Sənaye və istehsal	585.4	5.9	0,4
Nəqliyyat və rabitə	426.0	4.3	4
Digər	1656.4	16.3	2,9

Mənbə: AMB

əməliyyatlar üzrə kreditlər isə 13,6 % artmışdır.

2012-ci ilin I rübü ərzində kredit təşkilatları tərəfindən regionların kreditləşdirilməsi prosesi davam etmişdir. Regionlara kredit qoyuluşlarında milli valyutada olan kreditlər ötən dövrlərdə olduğu kimi xarici valyutada kredit qoyuluşlarını üstələmiş və 1 aprel 2012-ci il tarixə kredit portfelinin 76,3%-ni təşkil etmişdir. Regionlarda kreditlərin böyük hissəsini (66,1%) uzunmüddətli kreditlər təşkil edir.

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri

Dövr ərzində bank sisteminin maliyyə nəticələri müsbət olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə gəlirlilik göstəriciləri yaxşılaşmışdır.

Cari ilin I rübü ərzində bankların əldə etdikləri mənfəət 38,6 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra xalis mənfəət 35,9 mln. manat olmuşdur. Dövr ərzində mənfəətlə işləyən bankların sayı 36 (01.04.2011-ci il tarixə sayı 34), zərərlə işləyən bankların sayı isə 8 (01.04.2011-ci il tarixə sayı 10) olmuşdur.

Cədvəl 2.5. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər, mln. manat

Tarix	Kredit qoyuluşu			Əmanətlər		
	Cəmi	Manatla	Xarici valyutada	Cəmi	Manatla	Xarici valyutada
01.07.2010	1326,2	897,6	428,6	212,5	154,0	58,5
01.01.2011	1262,9	879,6	383,3	223,4	154,3	69,1
01.07.2011	1339,2	971,0	368,2	291,6	218,3	73,3
01.10.2011	1448,1	1055.6	392,5	311,8	224,8	87
01.01.2012	1271,7	940,1	331,5	327,6	242,7	85
01.04.2012	1273.4	972,1	301,3	386,9	270,2	116,7

Mənbə: AMB

I rüb ərzində bankların qiymətli kağızlara investisiyaları 4,2% artaraq 1 aprel 2012-ci il tarixə 1413,8 mln. manata (1 yanvar 2012-ci il tarixinə 1356,4 mln. manat) çatmışdır.

Qrafik 2.9. Bank aktivlərinin strukturu, %-lə



Mənbə: AMB

1 aprel 2012-ci il tarixinə qiymətli kağızların aktivlərdə xüsusi çəkisi 9,6% təşkil etmişdir (2012-ci ilin əvvəlinə 9,5%).

Qrafik 2.10. Bank sisteminin mənfəəti, mln. man.



Mənbə: AMB

Kreditlərin cəmi aktivlərdə payının ötən ilin müvafiq dövrü ilə müqayisədə artması ilə əlaqədar bankların müştərilərə verilmiş kreditlər üzrə faiz gəlirləri də 17,2% artmışdır (cəmi 279,5

mln. manat faiz gəliri). Faiz gəlirlərinin orta aktivlərə nisbəti müvafiq dövrlə müqayisədə 0.2 faiz bəndi artaraq dövrün sonuna 7.9% təşkil etmişdir.

Faiz gəliri gətirən digər əməliyyatlardan (banklararası tələblər, investisiyalar və maliyyə lizinqi) əldə edilən gəlir ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,9% artmış və orta aktivlərə nisbətdə sabit qalaraq 0,6% təşkil etmişdir. Rüb ərzində cəmi faiz gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,1% (44,4 mln. manat) artaraq 1 aprel 2012-ci il tarixə 303,6 mln. manata çatmışdır.

Rüb ərzində bankların cəmi qeyri-faiz gəlirləri ötən ilin müvafiq dövrünə nisbətən 13,7% artmış və hesabat dövrünün sonuna 74,6 mln. manat təşkil etmişdir. Bu, əsasən valyuta əməliyyatlarından gələn xalis gəlirlərin, digər xidmət növlərinə görə komissiya gəlirlərinin və qismən də hesabların aparılması üzrə xidmətlərdən komisyon haqqının artması hesabına baş vermişdir.

Bütövlükdə bankların ümumi gəlirləri (faiz və qeyri-faiz) 378,2 mln. manat təşkil etmiş və ötən ilin müvafiq dövründəki səviyyədən 16,4% (53,3 mln. manat) çox olmuşdur.

Fiziki şəxslərin uzunmüddətli əmanətlərinin həcminin artması ilə əlaqədar I rübün sonuna faiz xərcləri 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 15,9% artmış və 162,5 mln. manat təşkil etmişdir. Faiz xərclərinin orta aktivlərə nisbəti ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz bəndi artaraq 4,6% olmuşdur.

Qeyri-faiz xərcləri isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5% artmış və 1 aprel 2012-ci il tarixinə 136,5 mln. manat

Haşiyə 4. Banklarda kompensasiya siyasəti

Məlum olduğu kimi, kompensasiya dedikdə bank inzibatçılarına və əməkdaşlarına bankın idarə olunması və əmək funksiyalarının icrası ilə əlaqədar bank tərəfindən əmək haqqı və ya digər maddi formada ödənişlər nəzərdə tutulur. Banklarda kompensasiya siyasəti risklərin idarə edilməsi strategiyasında əks olunmuş risk səviyyəsindən artıq risk götürülməsinin qarşısının alınmasına yönəlməlidir. Kompensasiya siyasətinin protsikliliyini və bank inzibatçılarının risk "iştahası"nı məhdudlaşdırmaq məqsədilə Beynəlxalq Hesablaşmalar Bankının Bank Nəzarəti üzrə Bazel Komitəsi tərəfindən "Kompensasiya prinsiplərinin və standartlarının qiymətləndirilməsi metodologiyası" hazırlanmışdır.

Bu sənədə əsasən kompensasiya sistemi bankın korporativ idarəetmə mexanizminin əsas komponentlərindən biri kimi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- kompensasiya sisteminin yaratdığı stimul bankın rəqabət qabiliyyətliyinin artırılmasını təmin etməlidir;
- kompensasiya sistemi bankın risk yönümlü biznes fəaliyyətinə uyğunlaşdırılmalıdır;
- kompensasiya sistemi risklərin idarə edilməsi və insan resurslarının idarə edilməsinin təkmilləşdirilməsini təmin etməlidir;
- kompensasiya sistemi bankın uzunmüddətli və davamlı inkişafının təmin edilməsinə yönəldilməlidir.

Bank kompensasiya siyasətini hazırlayarkən aşağıdakıları nəzərə almalıdır:

- kompensasiya siyasətinin yol verdiyi risk götürmə çərçivəsinin bankın risklərin idarə edilməsi strategiyasına uyğunluğu;
- kompensasiya siyasətinin bankın kapital adekvatlığına təsiri;
- kompensasiya siyasətinin bankın məqsəd və dəyərlərinə, strateji hədəflərinə, o cümlədən uzunmüddətli hədəflərinə və risklərin idarə edilməsi sisteminə uyğunluğu;
- kompensasiya siyasətinin bankın müştərilərinin və səhmdarlarının maraqlarına xələl gətirməməyi.

Mənbə: Compensation Principles and Standards Assessment Methodology, January 2010, Bank for International Settlements

Cədvəl 2.6. Mənfəətin strukturu, mln. manat

	Yanvar- mart 2011	Yanvar-mart 2012	Dəyişmə, %-lə
Faiz gəliri	259.2	303.6	17.1
Faiz xərcləri	140.2	162.5	15.9
Qeyri-faiz gəliri	65.6	74.6	13.7
Qeyri-faiz xərcləri	121.3	136.5	12.5
Ümumi gəlir	324.9	378.2	53.3
Ümumi xərclər	261.5	299	14.3
Xalis əməliyyat mənfəəti	63.4	79.2	24.9
Aktivlər üzrə mümkün zərər üçün ehtiyatın yaradılmasına ayırmalar	25.1	40.6	61.7

Mənbə: AMB

təşkil etmişdir. Buna səbəb bank sistemində əmək haqqı, digər kompensasiya növləri və bank işində istifadə olunan əsas vəsaitlərlə əlaqədar xərclərin artmasıdır. Orta aktivlərdə cəmi qeyri-faiz xərclərinin payının cüzi olaraq, 3,9%-dən 3,8%-dək azalmasını digər əməliyyat xərclərinin azalması şərtləndirmişdir.

2011-ci ilin müvafiq dövrü ilə müqayisədə bankların ümumi xərcləri (faiz və qeyri-faiz) 14,3% (və ya 37,5 mln. manat) artaraq 299 mln. manat olmuşdur.

Cari ilin yanvar-mart aylarında bankların əməliyyat mənfəəti 79,2 mln. manat təşkil etmişdir. Bank aktivlərinin gəlirliliyi (ROA) 1,0%, kapitalın gəlirliliyi (ROE) isə 8,3 % təşkil etmişdir.

2.5. Bank sektorunun kapitalı

Hesabat dövründə bank sisteminin kapital bazasının gücləndirilməsi davam etmiş, sistemin kapital adekvatlığı göstəriciləri məqbul səviyyədə olmuşdur.

2012-ci ilin yanvar-mart ayları ərzində bank sisteminin məcmu kapitalının həcmi 10,6% və ya 199,2 mln. manat artaraq rübün sonuna 2085,5 mln. manat təşkil etmişdir. Nizamnamə kapitalının məcmu kapitalda payı 85,3% olmuşdur (ilin əvvəlinə 82,6%). I rüb ərzində məcmu kapitalın artımının əsas mənbəyini nizamnamə kapitalı təşkil etmişdir. Belə ki, nizamnamə kapitalı 220,2 mln. manat və ya

Cədvəl 2.7. Bank kapitalının strukturu, mln. manat

	01.01.2012	01.04.2012
Nizamnamə kapitalı	1558.9	1779.1
Səhmlərin emissiyasından əlavə vəsait	20.7	20.7
Bölüşdürülməmiş xalis mənfəət (zərər)	-40.7	40.7
Cari ilin mənfəəti	163.5	49.3
Ümumi ehtiyatlar	159.5	169.0
Kapitalın digər vəsaitləri	151.5	149.7
Məcmu kapital	1886.3	2085.5
Kapitaldan tutulmalar	-127.1	-123.2

Mənbə: AMB

Haşiyə 5. Kapitala tələblərin yüksəldilməsi və onun makroeffektləri

BVF-nun ekspertləri Bazel III tələblərindən biri olan kapitalın adekvatlığı səviyyəsinin yüksəldilməsinin bank kreditlərinin faizlərinə və ÜDM-in artımına təsirini araşdırmışlar. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, pul siyasətinin adekvat reaksiyası olarsa təsirin miqyası yüksək olmayacaqdır. Ümumilikdə, dünya üzrə kapitalın adekvatlığı səviyyəsinin 1% artırılması simulyasiyalarından alınan nəticələr aşağıdakı kimidir:

- Bankların kreditlər üzrə faizlərinin 0,159% bəndi artımına səbəb olacaq. İEÖ-də bu 0,151, İEOÖ-də 0,208% bəndi təşkil edəcəkdir. Ən yüksək artımın Braziliya (0,253%), Koreya (0,250%) və Yaponiyada (0,238%), ən aşağı artımın isə İngiltərə (0,118%), ABŞ (0,120%) və Kanadada (0,140%) olacağı gözlənilir;

Pul siyasətinin reaksiya verməyəcəyi halda ÜDM-in pik azalması 4-8 il ərzində baş verəcək və azalma 0,50% bəndi təşkil edəcəkdir. Bu İEÖ-də daha az – 0,46%, İEOÖ-də isə daha çox – 0,74% bəndi olacaqdır. Ən yüksək azalma Çin – 0,83%, Braziliya – 0,74% və Koreyada – 0,73%, ən aşağı azalma isə ABŞ – 0,36%, İngiltərə - 0,38% və Almaniyada – 0,48% müşahidə ediləcək;

- Pul siyasətinin reaksiya verəcəyi halda ÜDM-in azalma tempi 4 dəfə aşağı düşəcək və 0,13% bəndi olacaqdır, o cümlədən İEÖ-də – 0,12%, İEOÖ-də isə – 0,21% bəndi. Bu ssenaridə ən yüksək azalma Çin – 0,24%, Braziliya – 0,20% və Koreyada – 0,19%, ən aşağı azalma isə ABŞ – 0,09%, İngiltərə - 0,09% və Fransada – 0,10% qeydə alınacaq.

Mənbə: BVF WP 12/44, "The global macroeconomic costs of raising bank capital adequacy requiriments".

14,1% artmışdır. Ümumi ehtiyatlar 5,9% (9,5 mln. manat) yüksəlmişdir. Törəmə müəssisələrin və digər kredit təşkilatlarının səhmlərinə (paylarına), qeyri-maddi aktivlərə investisiyalar 149,7 mln. manat səviyyəsində olmuşdur (ötən ilin müvafiq dövründə 151,5 mln. manat təşkil etmişdir).

Bank sektoru üzrə kapital adekvatlığı minimal limiti üstələyərək hesabat dövrünün sonuna 15,4% səviyyəsində olmuşdur.

2012-ci ilin I rübü ərzində I dərəcəli kapital adekvatlığı göstəricisi minimal normanı (I dərəcəli kapital adekvatlığı norması 6%) üstələyərək 13,1%-dən 13,3%-dək yüksəlmişdir.

Leverec əmsalının tətbiqinin davam etməsi də bank sisteminin kapitallaşmasına müsbət təsir göstərmişdir. Leverec əmsalı üzrə minimal norma 8% həddində müəyyən edilmişdir. 2012-ci ilin mart ayının sonuna sistem üzrə leverec əmsalı 10,7% səviyyəsində olmuşdur.

Qrafik 2.11. Bank sisteminin kapital göstəriciləri



Mənbə: AMB

III. BANK SİSTEMİNDƏ RİSKLƏR

Hesabat dövründə bank sistemində likvidlik yüksək səviyyədə qorunmuş, kredit və bazar riskləri məqbul səviyyədə idarə olunmuşdur.

Cari ilin yanvar-mart ayları ərzində likvidlik göstəricilərinin yaxşılaşması müşahidə olunmuşdur. Likvid aktivlərin ümumi aktivlərdə payı 17%-dən 18%-dək, likvid aktivlərin cari öhdəliklərdə payı 59%-dən 60%-dək yüksəlmişdir. Ani likvidlik əmsalı 71%-dən 77%-dək artmışdır (minimal limit 30%).

Qrafik 3.1. Likvidlik göstəricilərinin dinamikası



Mənbə: AMB

1 aprel 2012-ci il tarixinə likvid aktivlərin strukturunda nağd vəsaitlər, nostro hesablar və dövlət qiymətli kağızlarının payı müvafiq olaraq 23%, 33% və 16% olmuşdur. Bankların Mərkəzi Bankda hesablarının xüsusi çəkisi dövrün sonuna 28% təşkil etmişdir.

Qrafik 3.2. Likvid aktivlərin strukturu, %-lə



Mənbə: AMB

Cari ilin I rübü ərzində kreditlərin maliyyələşməsində fiziki və hüquqi şəxslərin depozitlərinin payı artmışdır. Kreditlərin cəmi depozitlərə nisbəti 140%-dən 138%-ə enmişdir (01.04.2012 tarixinə 150% təşkil etmişdir).

Qrafik 3.3. Kreditlər və depozitlər arasında fərq



Mənbə: AMB

2012-ci ilin I rübü ərzində bankların müddət üzrə aktiv və passivləri arasında fərq məqbul səviyyədə olmuşdur.

Qrafik 3.4. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti

Mənbə: AMB

Haşiyə 6. Korporativ idarəetmənin prinsipləri

Bazel Komitəsinin tövsiyələrinə əsasən banklarda effektiv korporativ idarəetmə sistemi müəyyən prinsiplərə əsaslanmalıdır.

Prinsip 1. Bankın rəhbərliyi bank üzrə məsuliyyət daşıyır. Buraya bankın strateji məqsədləri, risk strategiyası, korporativ idarəetmə, korporativ dəyərlər üzrə fəaliyyətin təsdiqi və reallaşmasına riayət edilməsi daxildir.

Prinsip 2. İdarə Heyətinin üzvləri səriştəli mütəxəssis olmalı, fasiləsiz olaraq təlimlər keçməlidirlər. Onlar korporativ idarəetmədə rollarını aydın təsəvvür etməli və bankın idarə edilməsi sahəsində obyektiv qərarlar qəbul etmək bacarığına malik olmalıdırlar.

Prinsip 3. İdarə Heyəti müvafiq korporativ idarəetmə təcrübəsinə malik olmalıdır. Bu təcrübə daim təkmilləşdirilməlidir.

Prinsip 4. Qrup daxilində ana şirkətdə olan İdarə Heyəti bütün qrup üzrə müvafiq korporativ idarə etməyə cavabdehdir. O, qrupun strukturuna, biznesinə və riskinə uyğun olan idarəetmə siyasətlərini və mexanizmlərini təmin etməlidir.

Prinsip 5. Baş idarəedici personal bankın fəaliyyəti, biznes strategiyası və risk "iştahası"nın İdarə Heyəti tərəfindən təsdiq olunmuş siyasətlərə uyğun olmasını təmin etməlidir.

Prinsip 6. Bank kifayət qədər səlahiyyətləri, müstəqilliyi, resursları, Şuraya çıxış imkanları olan effektiv daxili nəzarət strukturuna və risk menecment funksiyasına malik olmalıdır.

Prinsip 7. Bankın risklərinin idarə olunmasının mürəkkəblik dərəcəsi və daxili idarəetmə infrastrukturu bankın risk profilinə (artım tempi nəzərə alınmaqla) və xarici risk mühitinə uyğunlaşdırılmalıdır.

Prinsip 8. Effektiv risk menecment İdarə Heyəti və səhmdarlara hesabatlar təqdim etməklə bankın daxilində risk üzrə daxili kommunikasiya sistemini təmin edir.

Prinsip 9. İdarə Heyəti və baş idarəedici personal daxili audit, xarici audit, daxili nəzarət funksiyası tərəfindən aparılmış işlərdən effektiv istifadə etməlidir.

Prinsip 10. İdarə Heyəti kompensasiya sisteminin çərçivəsi və fəaliyyətinə nəzarət etməli, işin düzgün qurulmasının monitorinqini aparmalıdır.

Prinsip 11. İşçilərin kompensasiya sistemi qəbul olunan risklərə uyğun olmalıdır. Kompensasiyalar risklərin bütün növlərinə uyğun tənzimlənməlidir. Kompensasiya sistemləri mükafatların həcmi ilə ümumi effektivliyi arasında əlaqəni nəzərə almalıdır. Kompensasiya ödənişlərinin qrafiki müəyyən zaman kəsiyində risklərin yaranmasına həssas olmalıdır. Nağd pul, qiymətli kağızlar və kompensasiyanın digər formalarında ödənişlər aparıldıqda yarana biləcək risklər nəzərə alınmalıdır.

Prinsip 12. İdarə Heyəti və baş idarəedici personal bankın əməliyyat strukturunu, qəbul etdikləri riski ("öz - strukturunu - bil") bilməli və başa düşməlidir.

Prinsip 13. Bank əməliyyatları standartlara və şəffaflığa uyğun aparılmadığı halda bu əməliyyatların məqsədi, strukturu və riskləri İdarə Heyəti və baş idarəedici personal tərəfindən dərk olunmalıdır. Onlar müəyyən olunmuş risklərin azaldılması yollarını müəyyən etməlidirlər ("öz - strukturunu – başa düş").

Prinsip 14. Bankın idarə edilməsi səhmdarlar, əmanətçilər, digər maraqlı tərəflər və bazar iştirakçıları üçün şəffaf olmalıdır.

Mənbə: Principles for enhancing corporate governance, October 2010, Bank for International Settlements

Məzənnə risklərinin təsirinin idarə edilməsi məqsədilə aktiv və passivlərin valyuta strukturu balanslaşdırılmışdır. Son bir il ərzində xarici valyutada olan aktivlərin cəmi aktivlərdə xüsusi çəkisi 45%-dən 39%-dək enmişdir. Xarici valyutada öhdəliklərin cəmi öhdəliklərdə xüsusi çəkisi isə 55%-dən 49%-dək azalmışdır.

Qrafik 3.5. Aktiv və öhdəliklərin xarici valyuta strukturu, %-lə



Mənbə: AMB

2012-ci ilin I rübü ərzində kredit portfelinin keyfiyyəti məqbul səviyyədə olmuşdur. Vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi dövrün sonuna 6,5% təşkil etmişdir.

Hesabat dövrü ərzində mənzil bazarında maliyyə sistemi üçün ciddi risklərə gətirib çıxara biləcək proseslər baş verməmişdir. İlin əvvəli ilə müqayisədə ilkin bazarda qiymətlər 3,8%, təkrar bazarda qiymətlər 2,0% artmışdır.

Qrafik 3.6. Yaşayış sahəsində qiymətlərin dinamikası



Mənbə: AMB

Son stress-testlərə əsasən Azərbaycanın bank sistemi kəskin makroiqtisadi şoklara qarşı dayanıqlı vəziyyətdədir.

Bank sisteminin "risk xəritəsinə" əsasən göstəricinin 1 qiyməti alması onun ən dayanıqlı, 4 qiyməti isə ən riskli vəziyyətini əks etdirir.

Qrafik 3.8. Bank sisteminin risk xəritəsi



Mənbə: AMB

Kapital yetərliyi dayanıqlı səviyyədə qalmaqdadır. Bununla yanaşı bazar və likvidlik risklərinin yaxşılaşması müşahidə olunur. Kredit riskləri idarə olunan səviyyədədir.

IV. ÖDƏNİŞ SİSTEMLƏRİ

Hesabat dövründə ödəniş sistemləri sabit və fasiləsiz fəaliyyət göstərmişdir. Ölkədəki iqtisadi aktivliyə və institusional dəyişikliklərə adekvat olaraq Milli Ödəniş Sistemində aparılan əməliyyatların həcmi və sayı artmışdır.

2012-ci ilin I rübü ərzində Milli Ödəniş Sistemində ümumi həcmi 25,707 mln. manat olmaqla 6,198 mln. ədəd əməliyyat aparılmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların sayı 2,1 dəfə (3273 min ədəd), ümumi həcmi isə 19% (4109 mln. manat) artmışdır.

Hesabat dövründə ödənişlərin orta günlük sayı 93,9 min ədəd, ümumi həcmi isə 389,5 mln. manat təşkil etmişdir (ötən ildə müvafiq olaraq 44,3 min ədəd və 327,2 mln. manat).

Nağdsız ödənişlərin 91,4%-i AZİPS sistemi vasitəsilə həyata keçirilmiş və onun ümumi həcmi 23 506 mln. manat olmuşdur (88 min ədəd əməliyyat). Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların ümumi həcmi 16,6% (3 339 mln. manat) artmışdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 272,1 min manat təşkil etmişdir.

Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası



Mənbə: AMB

Məbləğ baxımından ödənişlərin 8,6%-i (2,2 mln. manat) XÖHKS sistemi vasitəsilə həyata keçirilmişdir. Say baxımından isə XÖHKS sisteminin payı 98,6% təşkil etmişdir. Hesabat dövründə bu sistem vasitəsilə 6,1 mln. ədəd ödəniş olmuşdur. Bu da ötən ilin müvafiq dövrünü həcm etibarilə 1,5 dəfə (770 mln. manat) və say etibarilə 2,1 dəfə (3 257 min ədəd) üstələmişdir. Hər bir ödənişin məbləği orta hesabla 360,8 manat təşkil etmişdir.

Kommersiya bankları plastik kart infrastrukturunun inkişafını davam etdirmişlər. 2012-ci ilin I rübünün sonuna bank plastik kartlarına ölkə ərazisində yerləşdirilmiş 2 168 bankomatda və 20 994 pos-terminalda xidmət edilir. Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə ərazisində pos-terminalların sayı 2,3 dəfə artmışdır.

2012-ci ilin I rübündə bankomatlar vasitəsilə 1 758 mln. manat həcmində 11 725 mln. əməliyyat aparılmışdır. POS-terminallar vasitəsilə aparılan əməliyyatların sayı 831 min ədəd, həcmi isə 108 mln. manat təşkil etmişdir.

Qrafik 4.2. Quraşdırılmış bankomatların və POS-terminalların sayı



Mənbə: AMB

Haşiyə 7. Ödəniş sisteminin inkişafında mərkəzi bankın rolu

Ödəniş sisteminin inkişafı bank sisteminin inkişafı ilə bilavasitə bağlıdır. Ödəniş hesablarının açılması, müxtəlif alətlərlə ödəniş xidmətlərinin istehlakçılara (real sektor, dövlət orqanları və s.) çatdırılması bank və digər maliyyə institutlarının əsas funksiyalarındandır. Mərkəzi bank bank sektorunun aktiv partnyoru kimi ödəniş sistemi ilə bağlı həyata keçirdiyi siyasəti vasitəsilə bu prosesi asanlaşdırır və sürətləndirir. Mərkəzi bank operator, katalizator, müşahidəçi və istifadəçi kimi ödəniş sisteminin təhlükəsizliyini və səmərəliliyini təmin edir.

Operator və ya ödəniş sistemi xidmətinin provayderi kimi mərkəzi bank ödəniş və kredit xidmətini aşağıdakı tədbirlərlə inkişaf etdirə bilər:

- nağd vəsaitlərin birbaşa ödəniş aləti kimi buraxılması və banklararası ödənişlərin fasiləsizliyinin təmin olunması üçün depozit tələblərinin müəyyən olunması;
- sistem əhəmiyyətli klirinq və hesablaşma sisteminin idarə edilməsinə malik olmaq, təsir etmək və iştirak etmək;
- sistem əhəmiyyətli olmayan klirinq ödənişlərinin və hesablaşmalarının həyata keçirilməsi;
- hesablaşma sistemi iştirakçıları üçün gün ərzində və günün sonuna hesablaşma hesablarının idarə edilməsi və kreditlərin yerləşdirilməsini təmin etmək.

Katalizator kimi mərkəzi bank aşağıdakı tədbirləri həyata keçirməklə ödəniş sistemində islahatlara öz töhfəsini verə bilər:

- ödəniş sisteminin dizaynı, fəaliyyəti və siyasətinin başlanğıcını qoymaq, istiqamətləndirmək, tədqiqatını və konsaltinqini aparmaq;
- milli ödəniş sistemi üzrə təklif olunan qanunvericiliyin tərtib edilməsi zamanı konsultasiyalar vermək.

Milli ödəniş sisteminin **nəzarətçisi kimi** mərkəzi bank aşağıdakıları həyata keçirə bilər:

- mövcud olan və planlaşdırılan sistemlərə nəzarət etmək və onların təhlükəsizliyini və səmərəliliyini qiymətləndirmək;
- məsləhətlər vermək və lazımi hallarda ödəniş sisteminin dizaynı və əməliyyatları üzrə dəyişikliklərin edilməsini stimullaşdırmaq;
- nəzarət prinsipləri, siyasət və qaydalarını nəşr etmək.

Ödəniş xidmətinin istifadəçisi kimi mərkəzi bank klirinq və hesablaşma sistemlərində iştirak edə bilər:

- sistemdən istifadə edərək öz adından və müştərilərinin adından (dövlət orqanları və agentlikləri) ödənişlər etmək və qəbul etmək;
- öz fəaliyyəti üçün qiymətli kağızlar üzrə hesablaşmalar və depozitor sistemindən istifadə etmək;
- digər mərkəzi banklar və maliyyə institutları ilə müxbir bank xidmətindən istifadə etməklə əlaqələr qurmaq.

Mənbə: General guidance for national payment system development, January 2006, Bank for International Settlements

Plastik kartların sayı il ərzində (dövrü dəqiqləşdirilməli) 80 min ədəd artaraq 4,7 mln. ədədə çatmışdır ki, bu da hər min nəfərə (yetkinlik yaşına çatmış) orta hesabla 776,7 ödəniş kartı deməkdir.

İnternet vasitəsilə bank xidmətlərindən istifadə də genişlənməkdədir. Belə ki, dövr ərzində internet-bankinq vasitəsilə 1,3 mln. manat məbləğində 6,6 min əməliyyat həyata keçirilmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1.1. Sənayə istehsalının artımı, % 5
Qrafik 1.2. Qlobal səhm bazarı indeksləri 7
Qrafik 1.3. Əmtəə qiymətləri indeksi (2005 = 100) 7
Qrafik 1.4. Xam neftin orta aylıq qiyməti, $/ 1 barrel 7
Qrafik 1.5. Qlobal Maliyyə Sabitliyi xəritəsi 9
Qrafik 1.6. Yanvar-mart aylarında iqtisadi artım, %-lə 11
Qrafik 2.1. Depozitlərin dinamikası 13
Qrafik 2.2. Fiziki şəxslərin əmanətlərinin müddəti 13
Qrafik 2.3. Fiziki şəxslərin əmanətlərinin valyuta strukturu 14
Qrafik 2.4. Qeyri-rezidentlərdən (fiziki şəxslər istisna olmaqla) cəlb edilmiş müddətli öhdəliklərin dinamikası 14
Qrafik 2.5. Kredit aktivliyi, sorğu nəticələri* 14
Qrafik 2.6. Kredit portfelinin valyuta strukturu 15
Qrafik 2.7. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası 16
Qrafik 2.8. Fiziki şəxslərə kreditlərin məqsəd üzrə strukturu,%-lə 16
Qrafik 2.9. Bank aktivlərinin strukturu, %-lə 17
Qrafik 2.10. Bank sisteminin mənfəəti, mln. manat 17
Qrafik 2.11. Bank sisteminin kapital göstəriciləri 20
Qrafik 3.1. Likvidlik göstəricilərinin dinamikası 21
Qrafik 3.2. Likvid aktivlərin strukturu, %-lə 21
Qrafik 3.3. Kreditlər və depozitlər arasında fərq 21
Qrafik 3.4. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti 21
Qrafik 3.5. Aktiv və öhdəliklərin xarici valyuta strukturu 23
Qrafik 3.6. Yaşayış sahəsində qiymətlərin dinamikası 23
Qrafik 3.7. Bank sisteminin risk xəritəsi 23
Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası 24
Qrafik 4.2. Quraşdırılmış bankomatların və POS-terminalların sayı 24

Cədvəllər

Cədvəl 1.1. BVF-nun qlobal iqtisadi artımla bağlı son proqnozları 8

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi, %-lə 12

Cədvəl 2.2. Herfindal-Hirşman indeksinin dinamikası 12

Cədvəl 2.3. Bank öhdəliklərinin strukturu, %-lə 13

Cədvəl 2.4. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası 16

Cədvəl 2.5. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər, mln. manat 17

Cədvəl 2.6. Mənfəətin strukturu, mln. manat 19

Cədvəl 2.7. Bank kapitalının strukturu, mln. manat 19

Azərbaycan Respublıkasının Mərkəzi Bankı
Azərbaycan, Bakı, AZ1014, R. Behbudov küç., 32
Telefon (994 12) 493 11 22
Faks (994 12) 493 55 41
www.cbar.az